# QARABAĞ ƏRAZİSİNDƏ ƏNGİNAR (*Cynara*) BİTKİSİNDƏN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

**Kəmalə Sadıqova**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Dendrologiya İnstitutu,*
*kemeale.sadiqova1960@mail.ru*

Torpağın təmizlənməsində və məhsuldarlığının artırılmasında ot bitkilərinin istifadə olunması iqtisadi cəhətdən səmərəli ekoloji üsuldur. Torpağın məhsuldar olması bitkilərin inkişafına, yayılmasına imkan yaradır. Mürəkkəbçiçəklilər (*Asteraceae*) fəsiləsinə aid olan *Cynara* (ənginar) cinsi ot bitkiləri arasında çoxsahəli xüsusiyyətlərinə görə seçilir. Vətəni Aralıq dənizi ölkələridir. Azərbaycanda 2 növü: əkin ənginarı və ya tikanlı ənginar (*Cynara scolymus* L.) və İspaniya ənginarı (*Cynara cardunculus* L.) yayılmışdır.

Əkin ənginarı mürəkkəbçiçəklilər (*Asteraceae*) fəsiləsinə aid olub, hündürlüyü 2,5 sm -ə çatan çoxillik ot bitkisidir. Vətəni Aralıq dənizi olkələridir. Gövdə və yarpaqları sıx tükcüklərlə örtülmüşdür. Gövdəsi düzduran, ətli, yoğun, çoxlu sayda (1-15) budaqlanan olur. Mil kök sisteminə, çoxsaylı yan köklərə malikdir. Yarpaqları iri dilimli, xırda, ləläkvari bölümlü, səthi açıq mavi, alt hissəsi gümüşü rəngli, sıx tüklü olub, uzunluğu 120 sm-ə, eni isə 50 sm-ə qədər artır. Çiçəkləri göy, bənövşəyi, bəzən ağ rəngli olur, şarvari, yarımdairəvi, iri səbət çiçək qrupunda, çarpaz toplanır. Səbət çiçək qrupunun diametri 10-20 sm, şarvari, yarımdairəvidir. İyun ayında çiçəkləyir, iyul-avqust ayında meyvələri yetişir. Toxumları qara rəngli, 5-8 sm uzunluqda, yumurtavaridir. Toxumlarında 30%-ə qədər yağ vardır. 1000 ədəd toxumunun çəkisi 45-55 q olur. Əkin ənginarı növü eyni yerdə 30-40 il yaşaya bilir, çiçəkləyir, toxum verir. Vegetesiya müddəti 90-100 gün olur.

Birinci vegetasiya dövründə ancaq kökətrafı (rozet) yarpaqları formalaşır, sonra gövdədə çoxlu miqdarda yarpaqlar əmələ gəlir. Bitkinin daha yaxşı inkişaf etməsi üçün, alt yarpaqları çıxarılıb, ayrılır. Bundan sonra növün inkişafı daha yaxşı gedir. Əkin ənginarı növünün boy artımı 1-ci il 40-70 sm, 2-ci il isə 80-120 sm olur. Qeyd edək ki, müşahidələrmizə əsasən, bu bitkinin becərilməsində xüsusi qayğıya ehtiyac yoxdur.

Çoxillik ot bitkilərinin yamaclarda yayılması torpağa yüksək səmərə verir və onu eroziyadan qoruyur. Əkin ənginarı növünün yerüstü hissəsi iri həcimli, çoxlu yarpaq örtüyü əmələ gətirir. Odur ki, torpağı eroziyada mühafizə edir. Bu baxımdan, ənginar torpaq eroziyası ilə mübarizədə çox yaxşı bitki hesab olunur.

Bir çox faydaları ilə tanınan əkin ənginarı müxtəlif istehsal üsullarına malikdir, antioksidantlar, vitaminlər və minerallarla zəngindir. Ənginar lifli bir quruluşa malikdir. Aşağı kalorili və az yağlılığa malikdir, lakin lif ilə zəngindir. Xalq təbabətində əkin ənginarının yarpaqları, çiçəkləri, meyvələri və kökləri müxtəlif xəstəliklərin müalicəsində istifadə olunur. Tərkibindəki antioksidantlarla orqanizmdəki bir çox orqanlar üçün faydalı olan əkin ənginarı Azərbaycanda çox az tanınır və kifayət qədər becərilmir. Çoxsahəli əhəmiyyətə malik əkin ənginarı *(Cynara scolymus* L.) ot bitkisi kimi torpaq eroziyası ilə mübarizədə çox yaxşı bitki olduğundan Qarabağ ərazisində becərilməsi tövsiyə olunur.